# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 88

Bakı şəhəri                                                    "02" sentyabr 2014-cü il

**"Vərəmlə mübarizə tədbirlərinin gücləndirilməsi barədə"**

Son illər ərzində respublikada vərəmlə mübarizə sahəsində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş 2011-2015-ci illər üçün Tədbirlər Planının icrası məqsədi ilə vərəm xidmətinin maddi-texniki bazası gücləndirilmiş, vərəm əleyhinə müəssisələrin profilləşdirilməsi həyata keçirilmiş, yeni laboratoriyalar tikilərək müasir diaqnostik avadanlıqla təchiz edilmişdir. Səhiyyə Nazirliyinin 21.09.2010-cu il tarixli 72 nömrəli əmri ilə qəbul edilmiş Vərəmlə Mübarizə üzrə Milli Strategiya ilkin səhiyyə müəssisələrini vərəmin erkən aşkarlanmasına, həmçinin xəstəliyə qarşı kompleks profilaktik tədbirlərin gücləndirilməsinə istiqamətləndirmişdir.

Görülmüş tədbirlərin nəticəsində respublikada vərəmə görə epidemioloji vəziyyətin stabilləşməsinə nail olunmuşdur.

Bununla belə, vərəmə qarşı həyata keçirilən tədbirlərin və xəstələnmə vəziyyətinin təhlili göstərmişdir ki, bu sahədə nöqsan və çatışmazlıqlar hələ də qalmaqdadır.

Belə ki, vərəm hallarının ilkin səhiyyə müəssisələri səviyyəsində profilaktik müayinələr zamanı aşkar edilməsi lazımi səviyyədə deyil. İlkin aşkar olunan xəstələr arasında xəstəliyin dağılma fazasında olan şəxslərin sayı yüksəkdir.

Vərəmli xəstələrin, o cümlədən dərmana davamlı formalı xəstələrin müalicəsi üçün yaradılmış DOT (nəzarət altında müalicə) kabinetlərin fəaliyyəti yerli səhiyyə orqanları tərəfindən nəzarətsiz qalmışdır.

Vərəmin laborator diaqnostikasını yaxşılaşdırmaq üçün respublikanın şəhər və rayonlarından bəlğəm nümunələrinin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun Referens laboratoriyasına mərkəzləşdirilmiş qaydada daşınmasının təşkil edilməsinə baxmayaraq, bu işin də həyata keçirilməsində çatışmazlıqlar mövcuddur.

Qeyd olunanları nəzərə alaraq vərəmə qarşı mübarizə tədbirlərini daha da gücləndirmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

1.1. vərəmlə mübarizə tədbirlərinin həyata keçirilməsi şəxsi nəzarətdə saxlamaqla məsul şəxslərin məsuliyyəti artırılsın;

1.2. müayinə üsullarından (sadə mikroskopiya, tuberkulin diaqnostikası və rentgen-flüoroqrafiya) istifadə edərək passiv və aktiv aşkarlanma yolları vasitəsi ilə vərəm xəstəliyinin erkən mərhələdə müəyyən edilməsi təmin edilsin;

1.3. ilkin aşkar olunmuş vərəm, o cümlədən dərmana davamlı formalı xəstələrinin müalicə effektivliyi artırılsın;

1.4. vərəmə və insanın immunçatışmazlığı virusuna (koinfeksiya) yoluxmuş xəstələrə nəzarət gücləndirilsin;

1.5. ilkin səhiyyə müəssisələri səviyyəsində vərəmin profilaktikası və ilkin aşkarlanması işinin gücləndirilməsi məqsədi ilə konkret tədbirlər həyata keçirilsin;

1.6. vərəm üzrə elektron proqramını (e-TB Manager) və yoluxucu xəstəliklərin elektron müşahidə sistemini (YXEMS) istifadə etməklə vərəm hadisələrinin qeydiyyatı işi gücləndirilsin;

1.7. uşaqların icbari dispanserizasiyası, həmçinin məqsədli kontingentin tibbi müayinəsi zamanı vərəmin erkən aşkarlanması məsələlərinə ciddi diqqət yetirilsin;

1.8. hamilə qadınlar arasında vərəmin profilaktikası məqsədi ilə onlara minimum müayinə metodu olan Mantu sınağının qoyulması təmin edilsin;

1.9. bütün ilkin, həmçinin təkrar müalicəyə cəlb olunan xəstələrdə dərmanlara həssaslığın təyin edilməsi üçün bəlğəm nümunələrinin müəyyən edilmiş qaydada Referens laboratoriyasına göndərilməsi təmin edilsin;

1.10. tibb işçiləri arasında vərəmin aşkarlanmasına və profilaktikasına həsr olunmuş seminarlar keçirilsin;

1.11. vərəm xidmətinin vəziyyəti tibbi şurada müzakirə edilsin, işdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün konkret tədbirlər planı hazırlansın və görülmüş işlər barədə məlumat bir ay müddətində Səhiyyə Nazirliyinə təqdim edilsin.

2. Respublikanın şəhər və rayonlarının gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın:

2.1. hər bir vərəm xəstəliyi hadisəsi barədə daxil olmuş təcili bildirişə əsasən ftiziatrla birgə epidemioloji araşdırma həyata keçirilsin;

2.2. vərəm ocaqlarında kompleks profilaktik və əksepidemik tədbirlər görülsün;

2.3. vərəm əleyhinə tibb müəssisələrində epidemiyaya qarşı profilaktik tədbirlərin həyata keçirilməsi üzərində nəzarət gücləndirilsin;

2.4. ilkin vərəm xəstələrinin qeydiyyatında istifadə olunan elektron proqramının istifadəsinə nəzarət gücləndirilsin;

2.5. əhali arasında vərəm xəstəliyinin aşkarlanması və profilaktikası sahəsində geniş sanitariya maarifləndirmə işləri aparılsın.

3. İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru C.Məmmədova tapşırılsın ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru E.Məmmədbəyovla birgə vərəm sahəsini əhatə edən kliniki protokolların təkmilləşdirilməsi təmin edilsin.

4. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru E.Məmmədbəyova tapşırılsın:

4.1. operativ məlumatlara əsasən rübdə bir dəfə respublikada vərəm xəstəliyinin vəziyyəti təhlil edilərək məlumatlar Səhiyyə Nazirliyinə təqdim olunsun;

4.2. respublikanın tibb müəssisələrinə ftiziatriya sahəsində təcrübi və metodiki köməkliyin göstərilməsi artırılsın.

5. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, vərəm xəstəliyinin aşkarlanmasına aid məsələlərin aidiyyəti sertifikasiya suallarına daxil edilməsi təmin edilsin.

6. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, vərəmli xəstələrin vahid elektron registrinin fəaliyyətinin təkmilləşdirilməsi təmin edilsin.

7. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyarzadəyə tapşırılsın ki, respublikanın şəhər və rayonlarının tibb müəssisələri vərəm əleyhinə preparatlarla, diaqnostik test sistemləri və reaktivlərlə təmin olunsun.

8. Əmrin icrasına nəzarət nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**